## Azərbaycan dili

1. Hansı sözlərdə“o” saiti [a] kimi tələffüz ***edilmir***?
   1. piano 2. samovar
   3. pianino 4. melodiya
   5. avtoqraf
   A) 1,4,5 B) 3,4,5 C) 2,3,4
   D) 1,2,3 E) 1,2,5

2. Hansı sözə sait və ya samitlə başlayan şəkilçi qoşulduqda sözün kökü fərqli tələffüz olunur?
   A) qürub B) məntiq C) bələk
   D) idrak E) turşəng

3. Hansı birləşmənin birinci tərəfi bədii üslubun faktı kimi çıxış edə bilər?
   1. quru ağac 2. duzlu zarafat
   3. təndir kimi yer 4. dənizin dalğası
   5. yatan külək
   A) 1,2,3 B) 2,3,5 C) 3,4,5
   D) 1,2,4 E) 1,4,5

4. Verilən xüsusiyyətlər aiddir:
   - Dilçiliyin təcrübi sahələrindən biridir.
   - Sözlərin müəyyən prinsiplə cəmləşdiyi kitablar tərtib edilir.
   - Bu sahə ilə məşğul olan mütəxəssislər var.

   A) leksikologiyaya
   B) sintaksisə
   C) morfologiyaya
   D) leksikoqrafiyaya
   E) fonetikaya

5. Verilmiş cümlədə pozulmuş norma bəndlərin birində də pozulub.
   “Böyük bir çayın sahilinə çatan süvarı atlılar burada dincəlmək istədilər.”
   A) Azadlıq həmişə qurbanlar tələb edirlər.
   B) Günəş dağların arxasından boylanırdı.
   C) Sinifimizin şagirdləri ilə gəzinti təşkil etdik.
   D) Rəsul kitablarını çantıya qoydu.
   E) Kəndə yol düzəldildi, gediş-gəliş asanlaşdı.

6. Omonimlik xüsusiyyəti olan sözləri müəyyən edin.
   1. dam 2. zərif
   3. mürəkkəb 4. yanacaq
   5. qayın
   A) 1,3,5
   B) 2,3,4
   C) 1,2,5
   D) 2,4,5
   E) 1,3,4

7. Sinonim sifətləri müəyyənləşdirin.
   1. nəfs-tamah 2. nəfis-incə
   3. hörmətli-mötəbər 4. dəli-axmaq
   5. pəsdən-ucadan
   A) 2,3,5 B) 1,4,5 C) 2,3,4
   D) 3,4,5 E) 1,2,5

8. Cədvələ aid düzgün fikri müəyyən edin.

| | ***İsim*** | |
|---|---|---|
| A) | -gər şəkilçisi yalnız isimdən isim düzəldir. | doğru |
| B) | “Alın" isminə yalnız mənsubiyyət şəkilçisi artırdıqda ikinci sait yazıda düşür | yanlış |
| C) | “Qorxu” mücərrəd mənalı düzəltmə isimdir. | yanlış |
| D) | -ın$^4$ şəkilçisi hal, mənsubiyyət və feildən isim düzəldən şəkilçi kimi çıxış edə bilir. | doğru |
| E) | “İctimaiyyət” cəmlənə bilən toplu isimdir. | doğru |

9. Hansı bənddə feildən düzələn isim və sifət verilmişdir?
   A) bilik, hərbi
   B) qorxaq, qaçan
   C) gülünc, öldürücü
   D) qanacaq, yaraq
   E) ölçü, sürüşkən

10. Klasteri tamamlaya bilən sözləri müəyyən edin.




   1. dairəvi yol
   2. daş hasar
   3. yaxşı xasiyyət
   4. yaşlı kişi
   5. dərin zəka
   6. xeyirxah cavan
   A) 1,2,4
   B) 3,5,6
   C) 2,3,5
   D) 2,4,6
   E) 1,3,4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

11.Hansı sifətin morfoloji yolla azaltma və ya çoxaltma dərəcəsini yaratmaq ***olmur***:
A) dar B) quru C) badamı
D) təmiz E) diri

12.Hansı cümlədə həm isimdən, həm də feildən düzələn sifət işlənmişdir?
A) Məktəblilər arasında maraqlı müzakirələr aparılır.
B) Böyüklərin münasibəti tamamilə dəyişdi.
C) Yağışlı bir gündə camaat şadyanalıq edirdi.
D) Yaşlı və gənc nəslin sosial şəbəkələrə münasibəti kəskin şəkildə fərqlənir.
E) Bu gözəllik doğma yurdumuza daha çox sevgi verir.

13.Nümunələrin birində sifət ***işlənməyib***:
A) Elektron ünvanınızın olmaması çox maraqlıdır.
B) Bu adamın soyuqqanlı münasibəti onu açmadı.
C) Qarşısındakına diqqətlə baxanda onu tanıdı.
D) Verilən nümunəni doldurub cəld ərizəni imzaladı.
E) Hələ cavansan, sağlamlığının qədrini bilmirsən.

14.Tələffüzü verilmiş hansı sözləri həm isim, həm də sifət kimi düşünmək olar.
1. [fikri] 2. [sarıdır]
3. [qarıya] 4. [arıya]
5. [körpüyə]
A) 1, 2, 3 B) 2, 5
C) 1, 3, 4 D) 1, 3, 5
E) 2, 4

15.Hansı sözlərin kökü eyni nitq hissəsidir?
1. yaralanmaq 2. qaralamaq
3. bağlamaq 4. daralmaq
5. sağalmaq
A) 1,2,3 B) 2,4,5
C) 3,4,5 D) 1,2,4
E) 2,3,4

16.Cümlələrin birində cəm, mənsubiyyət və hal şəkilçisi qəbul etmiş söz var, amma isim ***deyil***.
A) Əsgərlərin ən dözümlülərini seçib bir qayanın ətəyinə gətirdilər.
B) Xəstələrin çoxunu başqa klinikaya köçürdülər.
C) Mən sizin verilişlərinizə maraqla baxıram.
D) Güləşçilərimizin yarışda qalıb gəlməsi bizi sevindirdi.
E) Zaldakılar komandamızı alqışlayırdılar.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam

17.Bəndlərin birində morfoloji yolla yaranan azaltma və çoxaltma dərəcəsində olan sifətlər verilmişdir:
A) sarıyanız, dümağ
B) gödərək, tünd-sarı
C) bapbalaca, yamyaşıl
D) tərtəmiz, qosqoca
E) dəlisov, dümdüz

18.Hansı sifətlərdə dərəcə əlaməti ***işlənməmişdir***?
1. zorbaca 2. tünd rəng
3. kəmhövsələ 4. ən yaxşı
5. açıq-aşkar
A) 1,2,3 B) 1,4
C) 2,3,5 D) 1,5
E) 2,3,4

19.Verilmiş nümunədə nöqtələrin yerinə uyğun olaraq hansı hal və mənsubiyyət şəkilçiləri artırılmalıdır?
Göz....,nur....can.....ana,səndən ötrü yaman darıxmışam!
A) üm-mənsubiyyət, ün-yiyəlik, u-mənsubiyyət, ım-mənsubiyyət
B) ün-mənsubiyyət,ün-yiyəlik,u-təsirlik,ım-mənsubiyyət
C) ümüz-mənsubiyyət, ü-təsirlik, umuz-mənsubiyyət,-ın-mənsubiyyət
D) üm-mənsubiyyət, -ün-yiyəlik, -u-mənsubiyyət, ı-təsirlik
E) –ün-yiyəlik, -umuz-mənsubiyyət, ım-mənsubiyyət

20.Hansı bənddə sifət düzəltmiş şəkilçilər isim də düzəldə bilər**?**
A) utancaq, ərincək, vətənpərvər
B) bivəfa, laməkan, nadinc
C) sulu, səssiz, dünənki
D) misgər, anbardar, birlik
E) gümüşü, azğın, həvəskar

21.Hansı sözlər isim və sifət olaraq omonimdir?
1. don 2. dar 3. çən
4. dolu 5. bənd
A) 2,4 B) 1,3 C) 4,5
D) 2,3 E) 1,5

22.Hansı düzəltmə sifətlərin kökləri omonimlik, sinonimlik və antonimlik xüsusiyyətinə malikdir.
1. nüfuzlu 2. düzgün
3. bağlı 4. geniş
5. incəlik 6. göydəki
A) 1, 3, 5 B) 1, 3, 4 C) 2, 4, 6
D) 2, 5, 6 E) 2, 3, 5

*Açıq tipli testlər:*

23.Verilmiş bütün isimlər hal şəkilçisi qəbul etmişdirsə, **səhv** yazılanları müəyyən edin.
1. ismi
2. çiyinin
3. sətirin
4. cisimin
5. beyni

24.Hansı sözlərdə həm kök, həm də şəkilçi fərqli tələffüz edilir.
1. başlayar
2. oxşayır
3. oğlanlar
4. sərhədlər
5. gülüstan
6. söyüdlü

25.Omonimlik xüsusiyyətinə malik olan hansı sözlər həm eyni, həm də müxtəlif nitq hissəsinə aiddir?
1. yaş
2. dar
3. kök
4. yara
5. üz

26.Feildən düzələn isimlər olan cümlələri müəyyən edin.
1. Vəzifəyə keçəndən sonra Xəlilovun elə bil yerişi də dəyişmişdi.
2. Ana titrək əlləri ilə oğlunun saçlarını tumarladı.
3. Ağacın kölgəsinə döşək gətirib üstündə əyləşdik.
4. Son vaxtlar idman etmədiyi üçün çəkisi bir qədər artmışdı.
5. Bu gərginlik hamını yormuşdu.

27.Uyğunluğu müəyyən edin.
1. Yazılışı və deyilişi fərqlənməyən düzəltmə sifət işlənmişdir.
2. Mürəkkəb sifətdən sonra gələn isim qrammatik normanı pozub.
3. Yazılışı səhv olan sifət işlənmişdir.
a. Süfrəyə dadlı-dadlı meyvə qoyulmuşdu.
b. Əvvəlcə o mənə soyuq adam təsiri bağışladı.
c. Yazının ilk mərhələsi əşyavi yazı olmuşdur.
d. Çəhrayi rəng xoşuma gəlir.
e. Onun qorxunc üzü adamı vahimələndirirdi.

***Mətni oxuyun və 28-30-cu sualları cavablandırın.***

Ev var ki, içinə girirsən, təmizliyi, səliqəsi, bər-bəzəyi ilə səni heyran edir. Döşəməsində naxışlı xalçalar, pəncərələrində tül pərdələr, hətta keçən əsrdə az tapılan, indi isə, demək olar ki, hər evdə olan piano və rəngli tablolar da gözə dəyir. Rəngarəng kaşılarla bəzədilmiş gözəl divar sobasında daş kömür və meşə odunu yanır və sənin gözünü oxşayır. Bununla belə, orada bir soyuqluq, narahatlıq duyursan. Bilmirsən, harada oturasan, ürəyin qısılır, tez çıxıb getmək istəyirsən. Ev də var ki, bütün bunların yüzdə biri orada yoxdur. İlk nəzərdə adama çox kasıb təsiri bağışlayır. Lakin içəridə bir rahatlıq, bir hərarət duyursan, canın qızır, ruhun dincəlir və oradan çıxmaq istəmirsən.

28.Mətn əslində iki abzasdan ibarətdir. İkinci abzasın başladığı cümləni müəyyən edib yazın.

________________________________________

________________________________________

29. Mətndə çərçivə daxilində verilmiş sözün funksiyasını müəyyən edin ✓. Həmin sözü fərqli funksiyada cümlədə işlədib yazın.
İnformativ funksiya daşıyır.
☐ Poetik funksiya daşıyır.
☐ Terminoloji funksiya daşıyır.

30. Mətnin məzmununa uyğun təzad yaradan söz və ifadələrə aid azı iki nümunə yazın.

________________________________________

________________________________________

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

## Tarix

31.Məntiqi ardıcıllığı tamamlayın:

*1. Gil qab düzəldən ustaların daha yüksək istilik əldə etməyi öyrənməsi*
*2. Qarabağın dağlıq hissəsində zəngin mis yataqlarının aşkarlanması*
*3.........................................................................*

A) Köçmə maldarlığın meydana gəlməsi
B) Saxsı qabların hazırlanmağa başlaması
C) Azərbaycanda gəmiçiliyin meydana gəlməsi
D) Eneolit dövrünün başlanması
E) Dulusçuluq sənətinin yaranması

32.Uyğunluq ***pozulmuşdur:***

A) Yustinian – Balkan yarımadasında bəzi əraziləri slavyan və türk tayfalarının məskunlaşması üçün güzəştə getdi
B) Vikinqlər – Qədim Roma imperiyasının sərhədlərini bərpa etdi
C) Böyük Karl – İspaniyada ərəblərlə müharibə apardı
D) Qraflar- Frank dövlətində vilayətləri idarə edən kralın nümayəndələri idi
E) Karl Martel – Puatye döyüşündə Ərəb qoşunlarını məğlub etdi

33.Paytaxtları ulduz ilə işarələnmiş dövlətlər üçün oxşar cəhət ***deyil:***



A) Makedoniya imperiyasının tərkibində olmaları
B) Roma hücumlarına məruz qalmaları
C) Yunan tanrılarına sitayiş etmələri
D) E.ə III əsrdə fəaliyyət göstərmələri
E) Tikinti materialı kimi kirəmitdən istifadə

34.Rəqəmlərdən hansılarının yerini dəyişdikdə hadisələrin düzgün xronoloji ardıcıllığı alınar:

| | |
|---|---|
| 1 | Albaniyada ilk xristian icmalarının yaranması |
| 2 | II Vaçenin azadlıq hərəkatının başa çatması |
| 3 | I Qoçaq Vaçaqanın Albaniyanın bütün vilayətlərini birləşdirməsi |
| 4 | Aquendə kilsə məclisinin çağırılması |

A) 1 və 2 B) 1 və 4 C) 2 və 3
D) 2 və 4 E) 1 və 3

35.*III Fəzlin dövründə Səlcuq dövləti ilə münasibətlər kəskinləşdi. Səlcuq türkləri bu dövlətin müstəqilliyini özləri üçün təhlükə hesab edirdilər. Ona görə də I Məlikşah sərkərdəsi Buğanı qoşunla göndərdi. Paytaxt şəhər tutuldu və dövlətin tarixi sona çatdı.*
Bəhs olunan feodal dövləti ilə Şirvanşahlar dövləti üçün oxşar cəhətdir:

A) Eyni əsrdə meydana gəlmələri
B) Bakının paytaxt şəhər seçilməsi
C) Azərbaycan torpaqlarının vahid halda birləşdirilməsi
D) Azərbaycanın şimal torpaqlarında meydana gəlmələri
E) Dərbənd səddinin təmir edilməsi

36.Romanın padşahlıq , respublika və imperiya dövrləri üçün ümumi cəhətdir:

A) Senatın mövcud olması
B) Konsulların ordu komandanı olmaları
C) Xalq tribununun seçilməsi
D) Vəzifəyə görə əmək haqqının verilməsi
E) Qladiator döyüşlərinin keçirilməsi

37.Uyğunluğu müəyyən edin:




A) 1,4 B) 2,3 C) 3,6
D) 1,5 E) 2,4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

38.Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a. Varaz Qriqorun hakimiyyətdə olması
b. Ərəb-Xəzər müharibələrinin baş verməsi
c. Muğan əhalisinin ərəblərin hakimiyyətini qəbul etməsi
d. Ərəblərin Xəzər şəhəri Bələncəri tutması

A) 1-c; 2-d; 3-a,b
B) 1-d; 2-c; 3-a
C) 1-a; 2-c; 3-d
D) 1-a,c; 2-b; 3-d
E) 1-a,c; 2-d; 3-b

39.Xürrəmilər ilə vuruşan ərəb qoşunlarının baş komandanı Afşin Heydər ibn Kavusun fəaliyyəti dövrünə uyğun gəlir:

A) Xürrəmilərin Həşdadsər dağı yaxınlığında qələbə qazanması
B) Həmədan yaxınlığında Xürrəmilərin məğlub olması
C) Cavidan və Əbu İmran arasında ədavətin hökm sürməsi
D) Savalan dağı yaxınlığında Ərəblərin məğlub olması
E) Xəzərlərin arası kəsilməyən yürüşlərinə son qoyulması

40.Verilən xüsusiyyətlərin aid olduğu şəhəri müəyyən edin:

*- IX əsrin ikinci yarısında Məzyədilərin iqamətgahı buraya köçürülmüşdür.*
*- Fəzl ibn Məhəmməd tərəfindən ətrafındakı feodal mülkləri ləğv edilmişdir.*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

41.Didqori döyüşünün nəticəsində:

A) Cəfərilər sülaləsi hakimiyyəti ələ keçirdi
B) Tiflis müsəlman əmirliyi ləğv edildi
C) Tiflis şəhəri Şərqi Gürcüstanda Ərəb əmirliyinin mərkəzinə çevrildi
D) Dəbil şəhəri Şəddadilərin əlinə keçdi
E) Salari hökmdarı İbrahimin naibi Gəncədən qovuldu

42.“Ulu icma” adlanan birliklərin mövcud olmasının səbəbləri:

1. İnsanların qan qohumluğu əsasında birləşməsi
2. Gündəlik tələbatların ödənilməsi ehtiyacı
3. Vəhşi heyvanlara qarşı birgə mübarizə
4. Anaxaqanlığının hakim olduğu birgəyaşayışın mövcud olması
5. Birgə əkinçilik fəaliyyətlərinin mövcud olması

A) 1,2 B) 3,5 C) 1,4
D) 2,3 E) 2,5

43.Hadisə və nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| A) | Nomlar arasında daimi rəqabətin aparılması | Vahid Misir dövlətinin yaranması |
| B) | I Tutmosun işğalçılıq müharibələrini genişləndirməsi | Misirin zəifləyərək ərazilərinin bir qismini itirməsi |
| C) | Kadeş müqaviləsinin imzalanması | şimal və cənubi Suriyanın hetlərdə qalması |
| D) | Akkadların başçısı Sarqonun Şumer şəhər-dövlətlərini işğal etməsi | Dünya tarixinin ilk imperiyasının yaranması |
| E) | Kutilərin Mesopotamiyanı idarə etməyə başlaması | Şumer şəhər-dövlətləri arasında müharibələrin başlanması |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BilikTeam

44.Xəritədə qara rənglər ilə verilmiş ərazilərin e.ə II minillik tarixi üçün oxşar cəhəti müəyyən edin:



A) Yadelli tayfaların yürüşünə məruz qalması
B) Vahid dövlətin qurulması
C) Şəhər-dövlətlərin meydana gəlməsi
D) Makedoniya imperiyasının yürüşünə məruz qalması
E) Əhəmənilər ilə mübarizənin aparılması

45.Salari dövlətinin hökmdarını müəyyən edin:
A) Deysəm
B) Mərzban ibn Məhəmməd
C) Ləşkəri ibn Məhəmməd
D) Əbülhica
E) Əbu Sac Divdad

46.Afina və Sparta arasında baş vermiş e.ə 431 - 404-cü il müharibəsinin səbəblərindən biri idi:
A) Afinanın Əhəmənilərə məğlub olması
B) Yunanıstanın şimalında Makedoniya dövlətinin yaranması
C) Torpağa görə bütün borcların ləğv edilməsi
D) Afinada tiranlığın yaranması
E) Demokratiya və Oliqarxiya sistemləri arasında ziddiyyətlər

47.Son feodalizm dövrü üçün xarakterikdir:
A) Avropada XI – XV əsrləri əhatə etmişdir
B) Şərqdə XIX əsrə qədər davam etmişdir
C) Həm də inkişaf etmiş və ya klassik feodalizm dövrü adlanır
D) Kəndlilər yalnız təhkimli kəndlilərdən ibarət idi
E) Feodallar vergiləri yalnız məhsul ilə alırdılar

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam

48.Uyğunluğu müəyyən edin:




A) 1-a; 2-b B) 1-a,b; 2-b,c
C) 1-b; 2-a,b D) 1-b,c; 2-a,b
E) 1-b; 2-c

49.Göytürk və Xəzər xaqanlıqları üçün oxşar cəhətdir:
A) Hakim sülalə Aşina sülaləsindən idi
B) Paytaxtı Ötükən şəhəri idi
C) Slavyan hücumu nəticəsində süquta uğramışdır
D) Musəvilik dövlət dini elan edilmişdir
E) Çin asılı hala salınmışdır

50.“Rəşidi xəlifələr” dövrünə *aid* ***deyil:***
A) Vestqotların məğlub edilməsi
B) Məkkə və Mədinənin paytaxt kimi fəaliyyət göstərməsi
C) Sasani dövlətinin süquta uğradılması
D) Xəzər xaqanlığının orduları ilə toqquşmalar
E) Ərəbistan yarımadasının tamamilə fəth edilməsi

51.Əməvilər sülaləsi dövründən fərqli olaraq Abbasilər sülaləsi dövründə:
A) Torpaqdan istifadə müqabilində xərac vergisi alınırdı
B) Hakimiyyətə qarşı narazılıqlar mövcud idi
C) Franklar ilə mübarizə aparılırdı
D) Xəlifələr türk hərbi başçılarından asılı vəziyyətə düşürdü
E) Pul vahidləri kimi, qızıl dinardan və gümüş dirhəmdən istifadə olunurdu

52.Sasani dövləti ilə müharibələr aparmışdır:
1. Xlodviq
2. Böyük Karl
3. Yustinian
4. Xəlifə Mötəsim
A) Yalnız 3 B) 1,2 C) 3,4
D) Yalnız 4 E) 1,3

*Açıq tipli test sualları:*

53.Pompeyin Albaniya ilə münasibətləri üçün xarakterikdir:
1. Padşah Oroys ilə döyüş
2. Sülh bağlanması
3. Qanıx döyüşündə məğlub olması
4. Sərkərdə Kozisin məğlub edilməsi
5. Kür çayı sahilində məğlub olması

54.IX əsrə aiddir:
1. Uyğur xaqanlığında Qırğızların üsyanı
2. Qaraxanlı dövlətinin yaradılması
3. Qutluq xanın Göytürk dövlətini bərpa etməsi
4. Xəzər xaqanlığının süquta uğraması
5. Sultan Mahmud Qəznəlinin Hindistana yürüşləri

55.Müsafirin rəhbərlik etdiyi hərəkat ilə Xürrəmilər hərəkatı üçün oxşar cəhətdir:
1. Ərəb ağalığından azad olmağa çalışmaları
2. VIII əsrdə başlanması
3. Abbasilərin hakimiyyəti dövründə başlaması
4. Albaniya dövlətinin mövcud olduğu dövrdə baş verməsi

56.Kuti və Lullubi dövlət qurumları ilə Manna dövləti üçün ümumi cəhətlər:
1. Akkad hökmdarları ilə mübarizə
2. E.ə III minillikdə meydana gəlmələri
3. Assuriyaya qarşı aramsız mübarizə
4. Çoxtanrılığın mövcud olması
5. Mixi yazı növündən istifadə

57.Uyğunluğu müəyyən edin:
1. Slavyanların 909-cu il yürüşü
2. Slavyanların 914-cü il yürüşü
3. Slavyanların 944-cü il yürüşü
a. Salari qoşunu məğlub edildi.
b. Qənimət və əsirlərin bir hissəsi Xəzər xaqanına verildi
c. Abaskun adası qarət edildi
d. Alanlar və sərirlər slavyanlar ilə ittifaqda idilər

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

Time/BilikTeam1

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

Ət-Təbəri deyir: Nuaym ikinci dəfə Həmədanı tutduqdan sonra Vacruddan Reyə yola düşdü. Ömər ona yazdı ki, o sərkərdə Bukayr ibn Abdallahın köməyinə Azərbaycana yeni qüvvələr göndərsin. Nuaym Reyi ələ keçirənədək kömək göndərilməsini uzatdı, ancaq bundan sonra Simak adlı sərkərdə Bukayrın yanına, Azərbaycana yola düşdü... Bukayr əmr alan kimi yürüşə başladı. Cərmidan həndəvərində gözlənilmədən Vacruddan qaçan Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzadla üzləşdi. Azərbaycan ərazisində Bukayrın ilk döyüşü baş verdi. Döyüş başlandı.Allahın kömədkliyi ilə İsfəndiyarın qoşunu qaçmağa üz qoydu. Bukayr İsfəndiyarı əsir tutdu... Bir neçə qaladan başqa, ölkə bütünlüklə onun əlinə keçdi...

58.Tarixi biliklərinizə əsasən mənbədə bəhs olunan döyüşün baş verdiyi ili qeyd edin:

59.Mənbədə bəhs olunan məğlubiyyətin nəticəsində bağlanmış müqavilənin şərtlərini tarixi biliklərinizə əsasən müəyyən edin:

60.Mənbədə bəhs olunan illərdə Ərəblərin Azərbaycana ilk yürüşünün mənbədə bəhs olunmayan nəticələrini tarixi biliklərinizə əsasən müəyyən edin (azı iki nəticə):

## Ədəbiyyat

61. Uyğunluğun ***pozulduğu*** variantı seçin.
A) qəsidə - lirik növün əruz vəznində beytlər şəklində yazılan janrdır.
B) realizm - müəyyən dövrdə realist metodla yazıb-yaradan sənətkarları birləşdirən ədəbi cərəyan
C) realist metod - sənətkarın bədii əsər yazarkən istifadə etdiyi yaradıcılıq metodlarından biridir və hadisələr olduğu kimi qələmə alınır.
D) romantizm - həyat hadisələrini olduğu kimi yox, özünün arzuladığı, görmək istədiyi kimi yazıb-yaradan romantik sənətkarları birləşdirən cərəyan
E) kompozisiya-bədii əsərdə süjetin inkişafının, iştirak edənlərin mübarizəsinin əsasını təşkil edən münaqişə, toqquşmadır.

62. Nöqtələrin yerinə yazıla biləcək sözü və ona uyğun nümunəni müəyyən edin.
"*Bədii əsərdə mənanı qüvvətləndirmək, müəyyən bir cəhəti diqqətə daha qabarıq çatdırmaq üçün həmin fikri ifadə edən sözün əvvəlinə artırılan qüvvətləndirici təyinedici sözə ... deyilir*".
A) metafor - Xəyalım dolanar gəzər
Gah Muğanı, gah Eldarı.
B) epitet - Oxşayır hüsnünü mavi buludlar.
C) təşbeh - Qələm kimi qaşların var,
Qulac-qulac qaşların var.
D) epitet - Çənlibeldən səni deyib gəlmişəm,
Alma gözlüm, qız birçəklim Qırat, gəl.
E) mübaliğə - Dəryalar mürəkkəb, meşələr qələm
Mollalar yazdıqca dərdim var mənim.

63. Sərbəst şeir üçün səciyyəvi olan cəhəti müəyyən edin.
A) bölgülərdə bütöv söz prinsipinin əsas götürülməsi
B) misralarda uzun və qısa hecaların bir-birini izləməsi
C) ahəng tarazlığının intonasiya və vurğu vasitəsilə təmin olunması
D) fasilənin sözün ortasına da düşə bilməsi
E) əruz vəzninin təsirinin aydın duyulması.

64. Bədii nümunə haqqındakı ***səhv*** fikri müəyyən edin.
*Heyva kimi sapsarı*
*Nə heyvadı, nə darı.*
*Bir ağacdan dərərəm,*
*Ləzzətini görərəm.*
A) Dördlük şeir şəklindədir.
B) Əşya haqqında üstüörtülü şəkildə məlumat verilmişdir.
C) Məişət nəğməsidir.
D) Dərk edilməsi üçün məntiqi təfəkkür tələb edir.
E) Folklorun geniş yayılmış janrlarından biridir.

65. Komediya janrını faciə janrından fərqləndirən xüsusiyyəti müəyyən edin.
A) həyatı əks etdirmə üsulu kimi əyani göstərmədən istifadə edilməsi
B) remarkadan istifadə edilməsi
C) dramatik növdə yazılması
D) monoloq və dialoqlardan istifadə edilməsi
E) komik əhvalatlar fonunda baş verən hadisələr yalnız nəsrlə qələmə alınır.

66. Şeir vəznləri ilə bağlı fikirlərdən biri ***yanlışdır***.
A) Heca vəznində bölgü təfilələr üzrə qurulmasa da, əruz vəznində təfilələr üzrə qurulur.
B) Yazılı ədəbiyyatda hecadan istifadə olunsa da, əruz vəznindən istifadə olunmayıb.
C) Şifahi xalq ədəbiyyatı nümunələri hecada yazılsa da, əruz vəznində yazılmır.
D) Heca vəznində misradaxili bölgüdə bütöv söz prinsipi gözlənilsə də, əruzda pozula bilər.
E) Heca vəznində misralardakı hecaların sayı bərabər olması əsas tələb olsa da, əruzda bu əsas tələb deyil.

67. Təmsil haqqında doğru fikri müəyyən edin.
A) Lirik növdə yazılan tərbiyəvi xarakterli ədəbi əsərdir.
B) Təmsildə əxlaqi, nəsihətamiz fikirlərdən qaçılır.
C) Təmsildə təbiət cisimləri və heyvanlar şəxsləndirilir.
D) Təmsillərdə əfsanələrdən fərqli olaraq alleqoriyaya yer verilmir.
E) Təmsil əsasən nəzmlə yazılır, tərənnümə əsaslanır.

68. Əruz vəzni haqqında doğru fikri müəyyən edin.
A) Əsas prinsiplərindən biri uzun və qısa hecaların mütənasib sıralanmasıdır.
B) Əruz vəznində misradaxili bölgü bütöv söz prinsipinə əsaslanır.
C) Ədəbiyyatımızda ən qədim vəzn hesab olunur.
D) Əruz vəzninə bəzən "aşıq ədəbiyyatı" da deyilir.
E) Poemalar bu vəzndə yazıla bilmir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam1

69. Qəzəl və qəsidə janrlarının hər ikisi üçün doğru fikirləri müəyyən edin.
1. Eyni vəzndə fərqli növdə qələmə alınır.
2. Sonda təxəllüs işlənir.
3. Aşiqanə şeir janrıdır.
4. Həcm olaraq eyniyyət təşkil edirlər.
5. Qafiyələnmə *aa, ba, ca* şəklində olur.
A) 1,4 B) 3,5 C) 2,5 D) 2,4 E) 2,3

70. Epik növ haqqında ***yanlış*** fikri müəyyən edin.
A) Epik növün əsas əlaməti müəyyən bir hadisə və ya əhvalatın danışmaq, nağıl etmək yolu ilə təsvir olunmasıdır.
B) Epik əsərlərdə təhkiyə əsas olduğundan təsvirə yer verilmir.
C) Epik növdə yazılan əsərlər həm nəzmlə, həm də nəsrlə yazıla bilər.
D) Epik növün janr müxtəlifliyi danışılan hadisənin yığcam və əhatəli olması, iştirak edən obrazların sayı ilə bağlıdır.
E) Məsnəvi şəklində yazılan əsərlər epik növdə olmaya da bilər.

71. Nağıllarla bağlı ***yanlış*** fikri seçin.
A) Epik növün ən qədim janrlarından biridir.
B) Nağıllarda hadisələr əsas qəhrəmanla bağlı olur.
C) Sehirli nağıllarda qəhrəman məqsədinə çatmaq üçün cin, div, əjdaha, ifritə kimi sehrli qüvvələrlə mübarizə aparır.
D) Xalqın zəngin həyat təcrübəsi əsasında gəldiyi qənaətləri, dəfələrlə sınaqdan keçirilmiş həqiqətləri əks etdirən yığcam, bitkin və dərin mənalı janrdır.
E) Heyvanlarla bağlı yaranmış nağıllarda heyvanlar xeyiri və şəri təmsil etməklə iki qrupa bölünür.

72. Dastanla bağlı verilən fikirlərdən hansılar doğrudur?
1. Nəzm hissəsi, əsasən, qoşma, gəraylıdan ibarət olur.
2. Bütün dastanlar ustadnamə ilə başlayır.
3. Bütün dastanlar duvaqqapma ilə bitir.
4. Həcmcə şifahi xalq ədəbiyyatının ən böyük janrıdır.
5. Dastanların sabit forma əlamətləri var.
A) 1,2,4 B) 2,3,4 C) 1,4,5
D) 1,3,5 E) 1,2,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

73. Verilmiş bəndin qoşmanın ilk bəndi olmasını göstərən əlamətlərdən biri doğrudur.
*Bivəfanın, müxənnəsin, nakəsin,*
*Doğru sözün, düz ilqarın görmədim.*
*Namərdin dünyada çox çəkdim bəhsin,*
*Namusun, qeyrətin, arın görmədim.*
A) Misralarin eyni olması
B) Misradaxili bölgünün eyni olması
C) Qafiyələnməsinə görə
D) Heca vəznində olmasına görə
E) Məzmuna görə

74. Nümunədə hansı bədii təsvir vasitələri işlənmişdir?
*Əmərdim hüsnündən min incə duyğu,*
*Sardımı çöhrəni xəzan soyuğu?*
*Əlvida, əlvida, daldığım uyğu*
*İnanmam ölümmü, röyamı yoxsa?*
1. Epitet 2. Metafor
3. Bədii sual 4. İnversiya
5. Təkrir 6. Metonimiya
A) 1,3,4 B) 2,3,4 C) 2,3,5 D) 1,2,6 E) 1,4,6

75. Hansı fikir bayatıya ***aid deyil?***
A) Məzmunca müxtəlif növləri vardır.
B) Hər misrada 7 heca olur
C) İlk iki misra əsas fikir üçün zəmin rolunu oynayır.
D) Sabit forma əlamətləri olan janrdır.
E) Mahnılarla oxşar xüsusiyyəti xüsusi melodiyasının olmasıdır.

76. Şifahi xalq ədəbiyyatının dramatik növünə aid ***səhv*** fikri müəyyən edin.
A) Dramatik növün folkloruna aid xeyli nümunələr dövrümüzə gəlib çatmışdır.
B) Xalq oyunları sənətin bir neçə sahəsini - musiqini, rəqsi, şeiri, aktyorluğu özündə birləşdirir.
C) "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" xalq tamaşasıdır.
D) Dini tamaşalara aid nümunə dövrümüzə gəlib çatmayıb.
E) Hərəkətli oyunlarda əşyalardan istifadə edilir.

77. Ədəbi məktəb haqqında verilmiş fikirlərdən biri doğrudur:
A) Müəyyən bir tarixi şəraitlə əlaqədar yarandığı üçün həmin tarixi dövr başa çatdıqda öz əhəmiyyətini itirir.
B) Müəyyən tarixi mərhələdə yazıçıların ideya məslək və əqidəcə birləşməsidir.
C) Böyük sənətkarın adı ilə bağlı olan yaradıcılıq ənənələrinin əsrdən-əsrə davam etdirilməsi əsasında yaranan ədəbi istiqamətdir.
D) Müəyyən konkret tarixi şəraitlə əlaqədar meydana gəlir.
E) Hər bir ədəbi məktəb zəruri olaraq bütün xalqların ədəbiyyatında meydana çıxır.

78. Nəzmlə bağlı fikirlərdən biri ***səhvdir.***
A) Lirik əsərlər kimi, epik və dramatik əsərlər də nəzmlə yazıla bilər.
B) Nəzmdə ahəng yaradan əsas şərtlərdən biri də rədifdir.
C) Nəzm əsərlərində gülüş və alleqoriyadan da istifadə oluna bilər.
D) Yazılı ədəbiyyatımızda nəzmin tarixi nəsrin tarixinə nisbətən daha qədimdir.
E) Nəzmlə yazılmış əsərlərdə göstərmə olmur.

79. Povestin romandan fərqi nədədir?
A) Povestdə hadisələr daha qısa zaman kəsiyində baş verir.
B) Povestdə mövzular daha mürəkkəb olur.
C) Povest yalnız dialoqlardan ibarətdir.
D) Povest daha çox elmi mövzulara üstünlük verir.
E) Povest təhkiyəyə əsaslanır.

80. Aşağıdakılardan hansı roman janrına aid ***deyil***?
A) Hadisələr geniş zaman kəsiyinin təsviri ilə çatdırılır.
B) Çoxşaxəli süjet xətləri mövcud olur.
C) Məhdud və qısa təsvirlərə yer verilir.
D) Müxtəlif xarakterli personajların iştirakı ilə qələmə alınır.
E) Həm nəzmlə, həm nəsrlə yazıla bilər.

81. Nümunə haqqında fikirlərdən biri ***səhvdir***.
*Əzizinəm, dara gəl,*
*Zülflərini dara gəl,*
*Başım sərdar əlində,*
*Tamaşamçün dara gəl.*
A) Bayatıdır.
B) *aaba* şəklində qafiyələnmişdir.
C) Əsas fikir son iki misrada verilmişdir.
D) Cinas qafiyədən istifadə olunub.
E) Vətən həsrəti mövzusundadır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTesti

82. Faciə janrı haqqında ***yanlış*** fikri müəyyən edin.
A) Ədəbiyyatımızda ilk nümunəsi XIX əsrdə yaranıb.
B) Əsərin qəhrəmanı fiziki cəhətdən məhv olsa da, mənəvi cəhətdən qalib gəlir.
C) Həm nəsrlə, həm nəzmlə yazılır.
D) Apardığı mübarizədə qəhrəman kəskin müqavimətə rast gəlir.
E) Faciədə müsbət surətlərin ideyaları da onlarla birlikdə məhv olur.

***Açıq tpli test sualları:***

83. Dramatik növlə bağlı doğru fikirləri müəyyən edin.
1. Mənzum pyeslərdə remarkalar nəsrlə yazılır.
2. Süjet xəttinin olması vacib deyil, kompozisiya hadisəni çatdıran əsas detal kimi işlənir.
3. Həm nəsr, həm də nəzm şəklində ola bilir.
4. Hadisələr oxucu və tamaşaçıya təhkiyə vasitəsilə çatdırılır.
5. Nəzmlə yazılan dramlar *"mənzum dram"* adlanır.

84. Eyler-Venn diaqramına əsasən sual işarəsinin yerinə uyğun fikirləri müəyyən edin.




1. Oturaq uşaq oyunudur.
2. Dramatik növə aiddir.
3. Folklor nümunəsi sayılır.
4. Əşyalardan istifadə edilmir.
5. Həm oyun, həm də tamaşadır.

85. Şifahi xalq yaradıcılığının epik növünə daxil olan janrları seçin.
1. Şəbih 2. Tapmaca 3. Mərsiyə
4. Poema 5. Yanıltmac 6. Məsəl

86. Yanıltmaclarla bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Səs oyunu üzərində qurulur.
2. Satirik və yumoristik məzmuna malik olur.
3. Həm nəzm, həm də nəsr şəklindədir.
4. Folklorun epik növünə aiddir
5. Qafiyələnməsi gəraylı ilə eynidir.

87. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




a. epik növün janrıdır.
b. fikir daha konkret olur.
c. müəyyən hadisə ilə bağlı olur.
d. şifahi xalq ədəbiyyatı nümunəsidir.
e. lirik növə aiddir.

**Sizə təqdim olunmuş nümunəni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.**

Bir sürü atlar ,
Çəməndə otlar.
Vaxtı gələndə,
Dərisi çatlar.

88. Verilmiş nümunənin forma xüsusiyyətləri haqqında məlumatları cədvəlin müvafiq xanalarına yazın.

| Ədəbi növü | Janrı | Vəzni |
|---|---|---|
| | | |

89. Nümunə ilə eyni qafiyə quruluşunda yazıla biləcək janrlar hansılardır?

90. Şeirin aid olduğu janrın xüsusiyyətləri haqqında ən azı üç cümlə yazın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BilikTeam1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1